

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 162 (23.804)

*4 sentyabr 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Sumqayıt şəhərində səfərdə olub. Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Məhkəmə Kompleksinin açılışlarında da iştirak edib, yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verilib.

Sentyabrın 3-də Prezident İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib, yeni yaşayış kompleksinin təməlini qoyub.

Sentyabrın 3-də Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısı "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasını işə salıb.



## "Azərbaycanın xilasının başlandığı gün" mövzusunda elmi konfrans olub

*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində "Azərbaycanın xilasının başlandığı gün" mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Çıxışda ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində ölkədə ağır siyasi vəziyyət və tənəzzülün hökm sürdüyü diqqətə çatdırılıb. Bildirilib ki, xalqın inam və etibarını, ölkənin gələcək rifahını hər şeydən üstün tutan dahi lider 1991-1993-cü illərdə muxtar respublikadakı siyasi fəaliyyəti ilə əsl vətənpərvər rəhbər missiyasını uğurla yerinə yetirdi. Sözügedən dövrdə baş verən hadisələri təhlil etməklə qətiyyətlə deyə bilərik ki, 3 sentyabr 1991-ci il tarixi Azərbaycanın xilasının başlandığı gündür.

Akademik diqqətə çatdırıb ki, ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə erməni təcavüzünün qarşısını almaq, Naxçıvanın müdafiəsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsini yaratmaq, 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı səviyyəsində qeyd etmək kimi tarixi əhəmiyyətli qərarlar qəbul edilib.



Azərbaycançılıq ideologiyasının irəli sürülməsi, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələrinin yaradılması, qısa zaman ərzində iqtisadi islahatların həyata keçirilməsi məhz dahi şəxsiyyət Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrünün mühüm bəhrələri, Naxçıvanın gələcək inkişafına, əhalinin rifahına yönəlmiş uzaqgörən addımlar idi.

Konfransda Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi: xilaskarlıq və qurtuluş missiyası" mövzusunda məruzəsi dinlənilib. Akademik bəhs olunan dövrdə Naxçıvanın düşdüyü blokada şəraiti, erməni qəsbkarlarının məkrli niyyətləri, mövcud iqtisadi və siyasi böhrandan bəhs edib. Bildirib ki, Azərbaycan xalqı çətin sınaq qarşısında qalan ölkənin gələcəyini yalnız görkəmli dövlət xadiminin rəhbərliyində görürdü. Belə ağır şəraitdə rəhbər vəzifəsini uğurla icra etmək təkcə siyasi bilik və istedad yox, həm də əsl vətənpərvər cəsarəti, təəssübkeşlik tələb edirdi.

Vurğulanıb ki, dahi rəhbərin Ali Məclisin Sədri vəzifəsinə seçilməsindən ötən 30 il ərzində Naxçıvan, sözün əsl mənasında, Azərbaycanın inkişaf strategiyasının öncülünə çevrilib. Muxtar respublikanın qazandığı bugünkü yüksəliş səviyyəsi Naxçıvanın gələcək sürətli inkişafından xəbər verir.

"Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlişi və müstəqillik yolunda atılan ilk addımlar" mövzusunda məruzə edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli dahi şəxsiyyətin Naxçıvana – doğma Vətənə qayıdışı, siyasi fəaliyyətinin ilk günündən etibarən Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizə haqqında danışıb. Dahi rəhbər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli sessiyasında mühüm tarixi qərarlar qəbul edilmiş, bununla ulu öndər üzərinə çox təhlükəli və məsuliyyətli vəzifə götürmüşdür.

Konfransda Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları, tarix üzrə fəlsəfə doktorları Musa Quliyev, Yaşar Rəhimov və dosent Emin Şıxəliyev mövzu ilə bağlı məruzə ediblər. Məruzəçilər görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlişi, müstəqillik yolunda atılan ilk addımlar, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinə törədilən qəsdlər, onların qarşısının alınması istiqamətində görülən tədbirlər və digər mühüm məsələlərlə bağlı təhlillər apardılar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib

2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədən irəli gələn vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən əməliyyat müşavirəsində daxili işlər naziri general-leytenant Fazil Ələkbərov məruzə ilə çıxış edib. Bildirilib ki, muxtar respublikamızda ümummilli lider Heydər Əliyev yolunu uğurla davam etdirən Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən həyata keçirilən siyasi strategiya nəticəsində hərtərəfli inkişafa nail olunub, əhalinin rifah halı yüksəlib, ərzaq, enerji ictimai təhlükəsizlik tam təmin edilib. Bütün infrastrukturun yenidən qurulması və mütəmadi olaraq qabaqlayıcı tədbirlərin həyata keçirilməsi diyarımızda, artıq neçə ildir ki, payız-qış mövsümünü problemsiz başa vurmağa imkan yaradıb. Lakin buna baxmayaraq, hər il qış aylarında ortaya çıxması ehtimal olunan mümkün problemlərin aradan qaldırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla əlaqədar müşavirə keçirilərək aid qurumlara müvafiq tapşırıqlar verilir.

Vurğulanıb ki, ötən payız-qış mövsümündə qarşıya qoyulmuş vəzifələr layiqincə yerinə yetirilib, daxili işlər orqanları heç bir çətinliklə üzləşməyib, mövsümü müsbət nailiyyətlərlə başa vurub. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan nazirlik istər maddi-texniki, istər əşya-ərzaq, istərsə də digər təminat növləri üzrə şəxsi heyətin tələbatını tam ödəməklə yanaşı, zəruri ehtiyat tədbirlərinin görülməsini əvvəlcədən planlaşdıraraq başa çatdırıb.



Cari ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar nazirliyin balansında olan 142 avtomobilə və 12 motosikletə texniki baxış keçirilib və lazım olan ehtiyat hissələri sifariş edilib. Şəhərdaxili, rayon və kəndlərarası marşrutlara çıxarılan avtobus və mikroavtobusların texniki sazlığı xüsusi nəzarətdə saxlanılıb, bu istiqamətdə fəaliyyətin daha səmərəli təşkili üçün Dövlət Nəqliyyat Xidməti ilə birlikdə 131 marşrut üzrə fəaliyyət göstərən 365 avtobus və mikroavtobus, həmçinin 496 taksi texniki müayinədən keçirilib.

Daxili işlər orqanlarının və Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının şəxsi heyətinin mövsümi geyimlərlə təmin edilməsi məqsədilə formageyim ehtiyatı yaradılıb, əməkdaşların və hərbi qulluqçuların isti qış geyimləri ilə təmin olunması üçün aidiyyəti üzrə sifarişlər verilib.

Diqqətə çatdırılıb ki, avqustun 28-də payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qarşıya qoyulan tələb və tapşırıqlar bundan sonra da vaxtında və qüsursuz yerinə yetiriləcəkdir.

Məruzə ətrafında Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyev, Dövlət Yol Polisi İdarəsinin rəisi, polis mayoru Ayaz Quliyev, Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovniki Kamil Məmmədəliyev və İctimai Təhlükəsizlik İdarəsinin xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektoru, polis mayoru İman Quliyev çıxış ediblər.



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən iclasda nazir, general-leytenant Şamı Abdullayev çıxış edərək bildirib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar Mülki Müdafiə Alayında şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə əsgər yataqxanası və yeməkxanasında, qərargah binasında təmir və yenidənqurma işləri həyata keçirilmiş, istilik sistemi yenidən qurulmuş, yaşayış və qeyri-yaşayış binalarının 4 min 191 kvadratmetr dam örtüyü yenidən boyanmışdır. 6 min 400 kvadratmetr ərazıyə yeni asfalt örtüyü salınmış, 2 min 268 kvadratmetr əraziyə kilid daş döşənmişdir. Səfərbərlik ehtiyatı və əşya anbarının 1296 kvadratmetr beton döşəməsi yenilənmiş və müasir rəflər yığılmışdır. Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və yerli qurumların inzibati binaları, texniki qarajları, anbarları və idman şəhərciklərində kosmetik təmir işləri aparılmışdır.

Qeyd olunub ki, 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 23 yanacaqdoldurma məntəqəsi, 11 elektrik stansiyası, 10 un dəyirmanı, 2 yem anbarı və 3 min 164 obyektdə yanğın-texniki müayinələr aparılmış, 57 min 631 nəfər yanğına qarşı təlimatlandırılmış, yanğın təhlükəsizliyi ilə bağlı profilaktik tədbirlər aparılmışdır.

Taxılın və digər sahələrin yanğından mühafizəsinə diqqət artırılmış, taxıl biçini dövründə intensiv biçin aparılan sahələrdə və əlverişli yerlərdə, ümumilikdə, 12 yanğınsöndürmə avtomobili heyətilə, magistral yol kənarlarında 3 motoxilasedici və gün ərzində 60-70 nəfərdən ibarət patrul xidməti təşkil olunmuşdur. Aparılan profilaktik tədbirlər nəticəsində taxıl sahələrində yanğın hadisəsi qeydə alınmamışdır.

2020-2021-ci illərin payız-qış mövsümü dövründə dəm qazı ilə zəhərlənmələrin qarşısının alınması məqsədilə aparılan profilaktik tədbirlər nəticəsində dəm qazından bədbəxt hallar baş verməmiş, muxtar respublika ərazisində yanğınların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 50 faiz azalmışdır.

Diqqətə çatdırılıb ki, muxtar respublikada koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə nazirliyin 14 xüsusi təyinatlı avtomobili, gündəlik olaraq 86 nəfər şəxsi heyəti cəlb edilərək, ümumilikdə, 20 milyon kvadratmetrdən artıq sahə dezinfeksiya edilmiş, Batabat Dövlət Qoruğunda, Kolanı-Biçənək və Ağbulaq İstirahət Mərkəzində, eləcə də muxtar respublikada avtomobil yollarının kənarında olan yaşıllıq zolaqları da daxil olmaqla, 8 milyon kvadratmetrə yaxın ərazi zərərverici həşəratlara qarşı dərmanlanmışdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər müzakirə edilib

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar iclas keçirilib.*

İclası nazir Tapdıq Əliyev açaraq bildirib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar meyvə-tərəvəz məhsullarının tədarük olunması istiqamətində soyuducu anbarların və istixana komplekslərinin sahibkarları arasında maarifləndirmə işləri aparılıb, mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş məhsulların anbarlara tədarük edilməsi məqsədilə kütləvi informasiya vasitələrində elanlar verilib, istehsalçı və tədarükçü sahibkarların fəaliyyətinin əlaqələndirilməsi təmin edilib. Dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına bu gün muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının saxlanması üçün ümumi tutumu 21 min 150 ton olan 49 soyuducu anbar yaradılıb. Bunlardan tutumu 16.120 ton olan anbarlar meyvə-tərəvəz məhsullarının tədarükü üzrə ixtisaslaşıb, tutumu 5.030 ton olanlar ümumi təyinatlı anbarlardır. Cari ilin ötən dövrü ərzində əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə tutumu 1620 ton olan 5 soyuducu anbarın yaradılması başa çatdırılıb.



Diqqətə çatdırılıb ki, tədarük dövrü başlayandan bu günədək muxtar respublika ərazisində fəaliyyət göstərən meyvə-tərəvəz məhsullarının saxlanması anbarlarına 6506,0 ton kartof, 10,0 ton soğan, 1,3 ton kələm, 116,7 ton alma, 100 ton üzüm olmaqla, 6734 ton məhsul tədarük olunub. Hesabat dövründə kartofun 632 tonu "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən nağd alınaraq tədarük olunub. Hazırda tədarük davam etdirilir. Soyuducu anbar sahibkarları tərəfindən məhsul tədarükü ilə yanaşı, 125 hektar sahədə kartof, 20 hektar sahədə soğan əkininin həyata keçirilməsi də daxili bazara rəqabətqabiliyyətli məhsulların çıxarılmasına, anbarların rentabelli fəaliyyət göstərməsinə şərait yaradıb.

Nazir qeyd edib ki, əhalinin qış aylarında tərəvəz məhsulları ilə təmin olunması mühüm məsələlərdən biridir. Bu sahəyə göstərilən diqqətin nəticəsində cari ilin ötən dövrü ərzində ümumi sahəsi 5440 kvadratmetr olan 2 istixana təsərrüfatının yaradılması və sahəsi 552 kvadratmetr olan 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılıb. Ümumilikdə, muxtar respublikada 150 min 817 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 34 istixana təsərrüfatı fəaliyyət göstərir. Cari ilin ötən dövrü ərzində istixana komplekslərində istehsal olunan 731 ton tərəvəz məhsulları istehlakçılara təklif olunmuşdur.

İstehlak olunan malların ekspertizası məsələsinə toxunan nazir bildirib ki, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən un və un məhsullarının keyfiyyəti də daim nəzarətdə saxlanılıb və 2021-ci ilin ötən dövrü ərzində 601 halda, o cümlədən 371 halda çörək, 138 halda unlu-qənnadı məhsulları, 64 halda un, 12 halda buğda, 16 halda kəpək nümunəsi götürülərək laboratoriyada təhlil edilib və göstəriciləri normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilib.

Tədbirdə payız-qış mövsümünə hazırlığın yüksək səviyyədə aparılması məqsədilə nazir daxili bazarın qorunması, mövsümə uyğun əsas ərzaq məhsullarına olan tələbatın müəyyənləşdirilməsi, soyuducu anbarların tutumuna müvafiq məhsulların tədarükünün həyata keçirilməsi, soyuducu anbarlarda avadanlıqların sazlığına mütəmadi nəzarət edilməsi, soyuducu anbarlara tədarük edilən məhsulların normativ-texniki sənədlərin tələblərinə uyğun şəkildə qəbulu və saxlanılması, istixana komplekslərindən səmərəli istifadə olunması və bütün istixana komplekslərində əkin işlərinin başa çatdırılması, həmçinin nazirliyin aparatının və tabeliyində olan qurumların elektrik enerjisi və qazdan istifadə zamanı qənaət tədbirlərinə riayət olunması, qazanxanaların işlədilməsinə müvafiq kurslardan keçmiş əməkdaşların cəlb edilməsi və qazanxanaların fəaliyyətinə nəzarətin təmin olunması istiqamətində tapşırıqlar verilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən iclasda komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli vurğulayıb ki, avqust ayının 28-də 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Dövlət Gömrük Komitəsinə Fövqəladə Hallar Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə birgə standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi ilə bağlı qarşıya vəzifələr qoyulub.

Qeyd olunub ki, qanunvericiliyə əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün elektrik və qazla işləyən qızdırıcı cihazların muxtar respublikaya idxalına uyğunluq sertifikatı əsasında icazə verilir. Standartlara uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları ölkə ərazisində satmaq və istifadə etmək qadağandır. Gömrük orqanları tərəfindən standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalının qarşısının alınması üçün nəzarət tədbirləri daha da gücləndiriləcəkdir.

Bildirilib ki, müşavirədə verilmiş tapşırıqların icrasının təmin olunması ilə əlaqədar aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış tədbirlər planına əsasən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının satışının qarşısının alınması və gətirilmə yollarının müəyyən edilməsi məqsədilə satış yerlərində reydlərin təşkili, istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması, kütləvi informasiya vasitələrində maarifləndirici materialların verilməsi nəzərdə tutulub. İdxal istiqamətində gətirilən qızdırıcı elektrik və qaz cihazlarının buraxılışına aidiyyəti dövlət orqanı ilə birgə baxış keçirildikdən sonra icazə veriləcəkdir.

Dövlət qayğısı hesabına muxtar respublikamızda müasir gömrük infrastrukturunun yaradıldığını önə çəkən komitə sədri gömrük orqanlarında qışa hazırlıqla bağlı görüləcək işlərdən də danışıb. Qeyd olunub ki, qazanxanaların fəaliyyəti, elektrik enerjisi ilə təminat, su və kanalizasiya xətlərinin vəziyyəti, yanğın təhlükəsizliyi, avtomaşınların sazlığı, əməkdaşların qış geyim dəsti ilə təchizatı məsələləri ilə bağlı işlər vaxtında başa çatdırılmalı, payız-qış mövsümündə də gömrük nəzarəti zonalarında və inzibati binalarda xidmətin yüksək səviyyədə təşkili təmin olunmalıdır. Elektrik enerjisi və təbii qazdan qənaətlə istifadə edilməli, istilik sistemlərinin fəaliyyəti hava şəraitinə uyğun tənzimlənməli, israfçılığa yol verilməməlidir.

Sonra çıxışlar olub.

* * *



2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən kollegiya iclasını mədəniyyət nazirinin müavini Həsən Kərimov açaraq bildirmişdir ki, nazirliyin tabeliyində 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 2 respublika əhəmiyyətli kitabxana, 30 muzey və muzeytipli müəssisə, 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, 400-dən çox klub, mədəniyyət evi, kitabxana, kitabxana filialları və digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Bu müəssisələrin payız-qış mövsümünə lazımi səviyyədə hazırlığı diqqət mərkəzindədir.

Vurğulanıb ki, nazirlik sisteminə daxil olan müəssisə və təşkilatlardan 1-i ümumiləşdirilmiş havalandırma sistemi, 67-si qazanxana və kombitipli sistem, 355-i ümumi istilik sistemi, 23-ü dizel yanacağı, 2-si maye qaz, 4-ü isə təbii qazla qızdırılır. Hazırda 19 mədəniyyət müəssisəsində tikinti işləri aparılır.

Bildirilib ki, ümumi olaraq Naxçıvan şəhəri üzrə 16, Şərur rayonu üzrə 106, Ordubad rayonu üzrə 47, Şahbuz rayonu üzrə 48, Babək rayonu üzrə 54, Kəngərli rayonu üzrə 21, Culfa rayonu üzrə 43, Sədərək rayonu üzrə isə 9 müəssisə ümumi istilik sisteminə qoşulmuşdur. Mədəniyyət müəssisələrinin payız-qış mövsümünə hazırlığı ilə əlaqədar olaraq lazım olan yanacaq və mal-materiallardan, o cümlədən 4 min 620 litr dizel yanacağı, 28 ədəd şifer, 220 kiloqram maye qaz, 175 metr polietilen olmaqla, siyahı hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Diqqətə çatdırılıb ki, 2021-ci ildə də muxtar respublikadakı mədəniyyət müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində təmin edilməsi ilə bağlı geniş abadlıq-quruculuq işləri aparılmışdır. Belə ki, bu il Şərur rayonunda Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi, Şəhriyar Kənd Mədəniyyət Evi və kənd kitabxana filialı, Ordubad rayonundaYuxarı Əndəmic və Nüsnüs kənd kitabxana filialları, Əndəmic kənd klubu, Nüsnüs kənd mədəniyyət evi, Şahbuz rayonunda isə Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binalar istifadəyə verilmişdir. Bu mədəniyyət müəssisələrinin hamısı istilik sistemi ilə təmin edilmişdir.

Qeyd edilmişdir ki, müəssisə rəhbərləri, kitabxana, klub müəssisələri təhlükəsizlik qaydalarına ciddi riayət etməli, xüsusilə mövcud vəziyyətlə əlaqədar sanitar-gigiyenik vəziyyət diqqətdə saxlanılmalı, müəssisələrdə elektrik enerjisindən və qaz sərfiyyatından, qanunsuz istifadəyə yol verilməməlidir. Müəssisə rəhbərləri elektrik sayğacı olmayan obyektlərdə sayğac quraşdırılması məsələsini indidən həll etməli, müvafiq orqanlar tərəfindən keçirilən reydlər zamanı mədəniyyət müəssisələrində bu kimi hallara rast gəlinməməli, aşkar olunan nöqsanlar isə ən qısa müddətdə aradan qaldırılmalıdır. Mədəniyyət müəssisələrində təhlükəsizlik qaydalarına əməl edilməsi üçün müvafiq tədbirlər görülməli, qazanxana işçilərinin peşə təhsilinə diqqət yetirilməli, onlar qış geyimləri ilə təmin olunmalı, mədəniyyət müəssisələrində dizel yanacağı, maye qaz, şifer, polietilen alınaraq bölgü üzrə düzgün bölünməsi və paylanması təmin edilməlidir.

Sonra kollegiya iclası çıxışlarla davam etmişdir.

* * *

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncaqda direktor Mahir Əliyev çıxış edərək bildirib ki, cəmiyyətin idarə və strukturlarının 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlığına dair 10 avqust 2021-ci il tarixdə müvafiq qərargah yaradılıb, ötən mövsümdəki işlər təhlil edilərək, aşkar olunan nöqsanlar nəzərə alınmaqla, Tədbirlər planı təsdiq olunub. Mövsümə hazırlıqla əlaqədar ötən dövr ərzində Culfa Lokomotiv Deposunda payız-qış mövsümündə istismar olunacaq 5 ədəd elektrovozun və 5 ədəd manevr-magistral teplovozun hərəkət və dartı hissələri müayinə olunaraq onlar texniki baxışdan keçirilib və cari təmir edilib. Culfa İstismar Vaqon Deposunda isə müxtəliftipli vaqonlarda cari və depo təmirləri aparılıb. Ötən aylarda Culfa Lokomotiv Deposunda nasaz vəziyyətdə olan lokomotivlərin təkər cütləri dartı motorları ilə birgə dəyişdirilərək nasazlıqlar aradan qaldırılıb. Payız-qış mövsümündə vaqon və lokomotivlərin normal və fasiləsiz istismarının təmin olunması məqsədilə qabaqlayıcı tədbirlər görülərək Bakı şəhərindən zəruri ehtiyat hissələri tədarük edilib. İstilik sistemləri ilə təchiz edilmiş sərnişin vaqonlarının və aralıq stansiyalarda növbətçi otaqların qızdırılması üçün 6 ton daş kömür ehtiyatı yaradılıb, mövsüm ərəfəsində isə əlavə olaraq 60 ton kömürün alınıb gətirilməsi təmin ediləcək.



Qarşıya qoyulan vəzifələri diqqətə çatdıran Mahir Əliyev bildirib ki, qış mövsümündə hərəkətin təhlükəsizliyinin tam təmin olunması məqsədilə bəzi sahələrə xüsusi önəm verilməlidir. Belə ki, istismarda olan vaqonların və lokomotivlərin mövsümdə fasiləsiz işini təmin etmək məqsədilə onlarda aparılan təmir işlərinin keyfiyyətinə nəzarət daha da gücləndirilməli, yolların, yoldəyişən qurğuların, keçidlərin, süni qurğuların və yol yatağının vəziyyətinə baxışlar keçirilməli, bütün yollar piyada şablonla yoxlanılmalı, nöqsanlar təcili aradan qaldırılmalıdır.

**Xəbərlər şöbəsi**

# 120 gənc ümumtəhsil məktəblərində müəllim kimi işlə təmin olunmuşdur



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş imtahanlarda müvafiq keçid balını toplayaraq işə qəbul edilən gənc kadrlarla görüş keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan təhsil naziri Rəhman Məmmədov muxtar respublikada aparılan təhsil siyasətinin uğurlarından danışmışdır. Bildirilmişdir ki, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində də zəruri tədbirlər həyata keçirilib. Ümumtəhsil müəssisələrinin pedaqoji heyəti üçün sistemli təlimlər təşkil edilib. 2021-ci ilin yanvar ayından isə Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən müəllimlərin sertifikasiyası aparılmışdır.

Vurğulanmışdır ki, dövlət ümumi təhsil müəssisələrində vakant vəzifələrə işə qəbul üçün 10 iyun 2021-ci il tarixdə müsabiqə elan edilmiş, müsabiqədə iştirak üçün 858 nəfər müraciət etmişdir. 2-16 avqust tarixlərdə keçirilmiş müsabiqənin nəticəsinə uyğun olaraq 214 vakant yerə namizədlərdən 493-ü keçərli bal toplamışlar. Qeyd olunan vəzifələr üzrə ən yüksək nəticə göstərən 120 gənc kadr yeni tədris ilindən müəllim kimi fəaliyyətə başlayacaqlar. Bu isə səriştəli, bacarıqlı kadrların məktəbə gəlməsinə, müəllimlərin ehtiyac olan təhsil müəssisələrində yerləşdirilməsinə gətirib çıxarır.

Sonra təhsil naziri yeni fəaliyyətə başlayan gənc kadrları təbrik etmiş, onlara yeni vəzifələrində uğurlar arzulamışdır.

Təhsil Nazirliyi aparatının Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbəsinin müdiri Abdulla Əsgərov yeni işə təyin olunan kadrlara stimullaşdırıcı tədbirlərin tətbiqi və müəllimlərin əmək funksiyaları ilə bağlı ümumi məlumat vermişdir.

Sonra gənc kadrlar adından çıxış edən Ellada Babayeva həyata keçirilən təhsil siyasəti və gənclərə göstərilən yüksək qayğıya görə gənc müəllimlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Sonda Təhsil Nazirliyi tərəfindən gənc müəllimlərə Ali Məclis Sədrinin Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən “Pedaqoji fikir tarixindən” kitabı hədiyyə olunmuşdur. Gənc kadrlara 6-8 sentyabr tarixlərdə qabaqcıl müəllimlər tərəfindən müəllim peşəsinin xüsusiyyətləri, müəllimlərin etik davranış qaydaları, fənnin tədrisi və məktəb sənədlərinin işlənməsi üsulları, fənn metod birləşməsinin əhəmiyyəti, pedaqoji şuranın strukturu və hesabatın hazırlanması, məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları, sinif rəhbərinin vəzifələri mövzularında 3 günlük seminarın keçiriləcəyi haqqında məlumat verilmişdir.

Tədbirdən sonra yeni işə qəbul edilmiş gənc kadrlar vaksinasiya olunmuşlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



# Şuşa, biz qayıtmışıq!

***Şuşaya Vaqif Poeziya Günlərinə gedəcəyimi biləndə çox qəribə bir hiss keçirdim. İnanırdım ki, nə vaxtsa Şuşaya gedəcəyəm, amma bu tezliklə gedəcəyimi xəyalıma gətirmirdim. Şuşa ürəyimdə ən böyük yara idi. Şuşa hər bir Azərbaycan vətəndaşının qürur yeri, and yeri, qibləsi idi. Hələ on il bundan əvvəl şeirlərimin birində yazmışdım:***

*Qana qandır bax bu gün mənim andım, şüarım,*
*Qanımı şərbət kimi içsin Vətən torpağı.*
*Bir milyon oğlu, qızı şəhid olsa da, belə,*
*Dalğalansın Şuşamda Azərbaycan bayrağı.*
*Qələbədir son andım – odur dinim, imanım,*
*Döyüş əmri ver mənə, Ali Baş Komandanım!*

Və bir də Şuşanın işğalından bir neçə il keçəndən sonra Təbrizə getmişdim. Qəribədir ki, Təbrizdə qeyri-adi bir duyğu məni tutdu. Düşündüm ki, bir zaman Təbrizə həsrət idik, indi də Şuşaya həsrət qalmışıq. Elə Təbrizdə olarkən yazdığım şeirdə Şuşa ilə bağlı ağrı-acımı dilə gətirdim:

*Təbriz arzum, təmiz eşqim, diləyim,*
*Şuşa mənim yaralanmış ürəyim.*
*Mən Vətənsiz axı nəyəm, kiməm, kim?*
*Quru topraq, cansız daşam, Təbrizim!*
*Tarixdə çox sərtləşməyin olubdu,*
*Sərtləşməyin, mərdləşməyin olubdu,*
*Heç Şuşamla dərdləşməyin olubdu?*
*Düşürmü heç yada Şuşam, Təbrizim?!*



29 il düşmən işğalı altında qalan Şuşa şəhəri Azərbaycan mədəniyyətinin beşiyidir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində müzəffər Ordumuz tərəfindən erməni quldurlarından təmizlənən bu qədim şəhərimizə səfər etmək bir şair kimi mənim arzularımın zirvəsi qəbul edilə bilər və Vaqif Poeziya Günlərinin iştirakçısı kimi bu xoşbəxtlik mənə nəsib oldu.

İlk növbədə, yollarda dayanmaları da nəzərə alsaq, 8 saata Şuşaya çatdıq (Qayıdanda isə yolumuz 6 saatdan da az çəkdi). Yol bizə çox uzun göründü. 29 illik həsrətə son qoymaq üçün tələsirdik. Yolboyu Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin acı, ürəkdağlayan mənzərəsi ilə qarşılaşdıq. Xarabaya çevrilmiş kəndlər hər birimizin ürəyində ağrılı, göynərtili şırımlar açırdı. Erməni vandalizmi dağıdılmış, xaraba qoyulmuş bu kəndlərin timsalında özünü daha qabarıq göstərirdi. Amma biz qürurlu idik. Füzulidə başlanan böyük quruculuq işləri qəlbimizi sevinc hissi ilə doldururdu. Füzuli-Şuşa yolunun solunda salınan Füzuli Beynəlxalq Hava Limanında son tamamlama işləri həyata keçirilirdi. Hər tip təyyarələri qəbul edə biləcək bu hava limanına artıq ilk sınaq uçuşunu keçirən təyyarələr enib-qalxırdı. Elə həmin gün ölkə başçısı Şuşaya gələrkən bu hava limanında olmuş, işin gedişi ilə bir daha yaxından maraqlanmışdı.

Biz Şuşaya Füzulidən başlanan "Zəfər yolu" ilə qalxırdıq. Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə olunan cığır yolun əbədiləşdirilməsi məqsədilə tikilən bu yol dövlət başçısı tərəfindən "Zəfər yolu" adlandırılıb. Əhmədbəyli-Füzuli-Şuşa "Zəfər yolu"nun keçdiyi ərazilərə baxanda təbiətimizin gözəlliyinə heyran qalmaqla yanaşı, bu yollardan şərəflə keçən qəhrəman oğullarımızı xatırladıq, Qarabağın azadlığı uğrunda canından keçən şəhidlərimizi böyük ehtiramla yad etdik. Yolun qısa bir zaman içərisində salındığını biləndə qürur hissi keçirdik.

Avqust ayının 29-da ölkə başçısı cənab İlham Əliyev Şuşada Molla Pənah Vaqifin məqbərəsinin, büstünün, əzəmətli "Qarabağ" otelinin, Bülbülün ev-muzeyinin, Üzeyir Hacıbəyovun heykəlinin açılışını etdi, dahi bəstəkarın ev-muzeyinin bərpası üçün göstərişlər verdi. Həmin gün bir sıra muzeylərin də açılışını edən ölkə başçısı 5 mərtəbəli, 150 otaqdan ibarət otel və konfrans mərkəzinin binasının təməlini qoydu. Şuşanın baş planının layihəsi həmin gün dövlətimizin başçısına təqdim olundu, birinci məhəllənin də təməli qoyuldu.

2021-ci il 30 avqust tarixdə Şuşada böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı keçirildi. Bu tədbir ölkənin həyatında mühüm rol oynamaqla yanaşı, Şuşada əsl bayram əhvali-ruhiyyəsi yaratdı.




– Azərbaycanın mədəni irsinin tarixə və yaddaşlara yazılmasında böyük əməyi olan ulu öndər Heydər Əliyevin qərarı ilə 1982-ci il yanvar ayının 14-də, şaxtalı bir gündə Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşada ucaldılmış məqbərəsinin açılışı keçirilmişdi. Bu, çox böyük hadisə idi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Uzun illər ermənilər Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Bunun üçün isə heç bir tarixi, mədəni əsas yox idi.

1982-ci ildə də ulu öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmış və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır.

On illər ərzində işğal atında qalan mədəniyyət ocağımız Şuşada düşmənin vandalizmi nəticəsində Azərbaycan mədəniyyətinə aid bütün tarixi abidələr məhv edilmişdi, o cümlədən Molla Pənah Vaqifə ucaldılmış məqbərəni də tanınmaz hala salmışdı. İşğaldan azad edilən Şuşa şəhərini ziyarət edən Prezident cənab İlham Əliyev, dərhal şəhərin tarixi irsini qorumaqla bərpa olunması üçün göstərişlərini verdi və Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Molla Pənah Vaqifin məqbərəsinin və büstünün qısa zamanda açılışı Şuşanın, Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bütün dünyaya bir daha təsdiqləyən mühüm fakt idi. Çünki təkcə şair yox, eyni zamanda Qarabağ xanının vəziri, dövrünün siyasi xadimi olmuşdu.

Avqust ayının 30-da Şuşa şəhərində bərpa edilən Molla Pənah Vaqifin məqbərəsinin açılışı və Vaqif Poeziya Günlərinin keçirilməsi münasibətilə tədbirdə çıxış edən Prezident cənab İlham Əliyev işğaldan azad edilmiş Şuşa şəhərində görülən işlər barədə məlumat verdi.

Şuşaya tam mənada zəngin həyatın qaytarılması üçün atılan zəruri addımlara toxunan Prezident bildirdi: ***"Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözlədi".***

Dövlətimizin başçısı Ali Baş komandan Böyük Qələbəmizdən də qürurla söz açaraq dedi: ***"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan Qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq. Dözüm, səbir, ədalətə inam Azərbaycan xalqını Qələbəyə gətirdi. Şuşa artıq azaddır. Biz azad Şuşada həyatı dirçəldirik. Şuşada festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir".***



Vaqif Poeziya Günlərinin birinci günündə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq şairi Nəriman Həsənzadə, Xalq yazıçısı Elçin çıxış etdilər və iki gənc şair şeirlərini oxudu.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri çərçivəsində avqustun 31-də xalq şairlərinin, həmçinin orta nəsil və gənc şairlərin çıxışları, muğam sənətkarlarının ifaları dinlənildi, "Nizamidən Vaqifə" adlı poetik kompozisiya təqdim edildi.

Vaqif Poeziya Günlərinin ikinci günündə çıxış edən Azərbaycanın Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı Vaqif Poeziya Günlərinin hər kəs üçün xoşbəxt anlar yaşatdığını vurğulayaraq dedi: "Şuşaya gəlməyimizlə bizim ruhumuz yüksəlir, əhvalımız yüksəlir, başımız dikəlir və öz tariximizlə, öz varlığımızla qürur duyuruq". Xalq şairi bu ucalığı xalqımıza bəxş edən Ali Baş Komandan cənab İlham Əliyevə, Azərbaycan əsgərinə minnətdarlığını bildirdi. Qeyd etdi ki, bu günlərdə təşkil olunan Vaqif Poeziya Günləri, əslində, sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramıdır. Biz Şuşaya gələndə gördüyümüz o keçilməz yolları bizim ər oğullar Vətən sevdası, Şuşa sevgisi ilə qısa bir zamanda çox sürətlə keçərək bu yerə gəlib çatıblar. Bu, misligörünməmiş bir qəhrəmanlıqdır. Əslində, bu, 30 il çox çətin günlər yaşamış ədəbiyyatımıza da Azərbaycan əsgərinin verdiyi bir töhfədir. Bu, Azərbaycan əsgərinin göstərdiyi tarixi bir igidlikdir. Ali Baş Komandan bu qələbələrin nəticəsi olaraq Azərbaycanın söz ordusuna Vaqif məqbərəsini qaytardı. Sözün və silahın bir olduğu yerdə ölkə basılmaz. Məhz burada əyləşən söz, sənət adamları da daim Azərbaycan Ordusuna dayaq olmağa, onları yeni döyüşlərə ruhlandırmağa çalışıb. Bu gün nə yaxşı ki, sözümüzlə silahımız birdir. 44 günlük müharibə də bu birliyi bir daha göstərdi. Amma bu birliyin ən gözəl nümunəsini Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan göstərdi.

Vaqif Poeziya Günlərinin ikinci günündə Vaqif Bəhmənli, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri Arif Buzovnalı, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, şairlərdən İbrahim İlyaslı, Nigar Həsənzadə, Xəyal Rza, Rəsmiyyə Sabir, Əkbər Qoşalı, Fərid Hüseyn çıxış edərək şeirlərini oxudular. Beynəlxalq Muğam Müsabiqəsinin qalibləri Nisbət Sədrayeva və Xəyal Hüseynovun ifaları tədbir iştirakçılarını muğam, sənət dünyamızın beşiyi olan Şuşa ovqatına, millilik ruhuna köklədi. "Nizamidən Vaqifə" adlı poetik kompozisiya isə tədbirə xüsusi rəng qatdı. Xalq artistləri Mehriban Zəki, Pərviz Məmmədrzayev, Əməkdar artistlər Gülzar Qurbanova və Elşən Rüstəmovun çıxışları alqışlarla qarşılandı. Vaqif Poeziya Günlərinə "Qarabağ, ana yurdum" mahnısı ilə yekun vuruldu. Bu tədbir bir daha göstərdi ki, Şuşa Qarabağın mədəniyyət mərkəzi, musiqi beşiyidir. Bəli, Şuşa sarayı yenidən ucalır.

Şuşa şəhərinin hər bir yerini gəzdik, dolaşdıq. Cıdır düzündə olduq, Vaqifin məqbərəsinin önündə şeir oxudum, 3 gün "Xarıbülbül" otelində Azərbaycanın görkəmli söz, sənət adamları, Milli Məclisin deputatları ilə həmsöhbət oldum, Xan qızı Natəvanın dağılmış evinə baş çəkdim, həmin evin yanında ölkə başçısının göstərişi ilə yenidən bərpa olunan bulağın suyundan içdim, Bülbülün, Xurşudbanu Natəvanın, Üzeyir Hacıbəyovun güllələnmiş heykəllərinə baxdım, bərpa olunan binalara, məscidlərə heyranlıqla göz yetirdim, "Bravo" marketindən "Sirab" suyu aldım, elə qaldığımız "Xarıbülbül" otelində də hər gün "Sirab" masamızın üstündə idi. Şəhərin divarlarına yazılmış "Çərçiboğan uşaqları", "Nehrəm uşaqları" sözlərini oxuyanda ürəyim atlandı. Şuşanın, Qarabağın azad olunmasında iştirak edən hər bir əsgərin qarşısında özümü borclu sandım, qazilərimizə cansağlığı, şəhidlərimizə Allahdan rəhmət dilədim.

Şəhərdə gedən böyük abadlıq işlərini gördüm və sevindim ki, gözəl Şuşa tezliklə öz gözəlliyinə qovuşacaq. Bu gün Şuşa şəhəri, Füzuli rayonu inşaat meydançasını xatırladır. Hər yerdə sürətli bərpa və quruculuq işləri görülür.

Sevinirəm, fəxr edirəm ki, qüdrətli Azərbaycan dövlətimiz var. Güclü iqtisadiyyatımız sayəsində elə qarşıdakı illərdə Şuşamızın, dağıdılmış kəndlərimizin, yollarımızın bərpasının şahidi olacağıq və bütün dünyaya yenidən səslənərək deyəcəyik ki, Qarabağ bizimdir, Şuşa bizimdir, biz onu sevirik, qoruyuruq, dirçəldirik. Yurd, Vətən sevgisi, yurda bağlılıq, baxın belə olur.

Şuşa sevinirdi doğmaları qayıtdığı üçün, insanlar da sevinirdi – Şuşanın qoynunda gəzdiyi, Şuşanın təmiz havasını udduğu üçün, onun vüsalına qovuşduğu üçün.

Həmin günlərdə dilimdə Ali Baş Komandan Prezident cənab İlham Əliyevin bir sözü qürurla səslənirdi:

***– Əziz Şuşa, biz qayıtmışıq!***

Biz qayıtdıq, elliklə qayıtdıq, sözlə, nəğmə ilə qayıtdıq. Elə şuşalıların nümayəndələri də bizimlə Şuşaya getmişdi. Mən məqbərənin önündə çıxışım zamanı dedim ki, 2014-cü ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş tədbirdə ölkə başçımız mənim bir şeirimin son bəndi səslənəndə çox kövrəlmiş, dərindən köks ötürmüşdü. Həmin şeirdə deyirdim:

*Cənnət olub Vətənim – köksümə sığmır ürək,*
*İnanıram, bir gün də Naxçıvanım güləntək*
*Qarabağım gülərək zil səsiylə deyəcək:*
*-Şuşaya, Xocalıya eli, obası gəldi!*
*Gəldi, ulu Heydərin İlham balası gəldi!*
*Gəldi, ulu öndərin İlham dühası gəldi!*

Bəli, arzuladığım günü gördüm. Şuşaya gəldik, Şuşanı gördük. Şuşadan çox böyük inamla, ümidlə qayıtdıq. Çox çəkməz ki, qəhrəman oğullarımızın sayəsində azad edilən, dövlətimizin gücü-qüdrəti sayəsində gülüstana dönəcək doğma Qarabağımızı bütünlüklə – qarış-qarış gəzərik...

**Asim YADİGAR**
***Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Monitorinqlər davam edir



Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında rabitə və internet xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi, internet verilişində qırılmaların qarşısının alınmasına dair qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı 23 avqustdan etibarən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada monitorinqlərin keçirilməsinə başlanılmışdır. Monitorinqlər hazırda Şərur rayonunun kəndlərində davam etdirilir. Monitorinqlər zamanı abonentlərlə görüşlər keçirilir, mövcud olan internet xətlərinə və avadanlıqlara baxış aparılır. Aparılan təhlillər onu göstərir ki, bir sıra mənzillərdə internet verilişində fasilələrin yaranmasının, internetin keyfiyyətinin aşağı olmasının əsas səbəblərindən biri abonentlərin mənzillərindəki ADSL-splitter qurğusundan (yüksəktezlikli kanalları bir-birindən ayıran və onların eyni anda bir xətdə işləməsini təmin edən qurğu) və ya RJ-11 telefon bağlayıcısının qoşulduğu nasaz şəbəkə qutusundan qaynaqlanır. Bir telefon xəttində modem və danışıq kanalının eyni anda işləməsini təmin edən ADSL-splitter vasitəsilə istifadəçi bir abonent xəttində iki funksiyadan istifadə edə bilir. Qurğu nasaz olduqda isə kanallar işləyərkən bir-birinə maneə törədir və internetin verilişində qırılmalara səbəb olur. Belə ki, telefon xəttindən istifadə edən zaman internet xətti işləmir və qısa fasilələr yaranır. Monitorinqlər zamanı internet qırılmalarına səbəb olan hallar aradan qaldırılmaqla internetin verilməsi bərpa olunur. Bunlarla yanaşı, yararsız kabellər aşkar edildiyi təqdirdə rayon rabitə idarələrinin əməkdaşları tərəfindən yeni kabellərlə əvəz edilməsi məqsədilə zəruri tədbirlər görülür, internet xətlərində yaranmış nasazlıqlar qısa zamanda aradan qaldırılır.

Nazirliyin mütəxəssisləri istifadəçilərin fasiləsiz və sürətli internetə çıxışını təmin etmək məqsədilə profilaktik tədbirlər həyata keçirirlər. Görülən işlər, həyata keçirilən tədbirlər sakinlərin rahatlıqla internet xidmətlərindən istifadəsinə şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixdə imzaladığı "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncamına əsasən fəaliyyətə başlamasının 100 illiyini qeyd etməyə hazırlaşdığımız "Şərq qapısı" qəzetinin işıq üzü görən ilk saylarını vərəqlədikcə orada dərc olunan məqalələrin mövzu dairəsinin çox geniş və əhatəli olduğunu görürük. Burada əhalinin böyük əksəriyyətinin savadsız olduğu bir dövrdə insanları məlumatlandırmaq, onlara maraqlı xəbərlər çatdırmaq, maarifləndirmək məqsədilə bölgə həyatının bütün sahələrinə həsr olunmuş böyük və kiçikhəcmli məqalələr özünə yer almışdır. Savadsızlığın ləğv olunması istiqamətində işlər aparıldığı həmin dövrdə "Şərq qapısı" qəzeti öz üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirmiş, insanlar onun məlumatlarından yararlanmışlar. Təsadüfi deyildir ki, Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev "Şərq qapısı" qəzeti haqqında bəhs edərkən qeyd etmişdir:* ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. Qəzetiniz o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".***

***"Şərq qapısı" – 100***

# "Şərq qapısı" qəzetinin nəşrinin ilk illərində Naxçıvanın tarix-mədəniyyət abidələri haqqında məlumatlar



*Qəzetin ilk nömrələrindən başlayaraq onun səhifələrində Naxçıvan diyarının tarixi, orada mövcud olan tarix-mədəniyyət abidələri haqqında məqalələr də dərc olunmuşdur. Elmi nəşrlərin, xüsusilə jurnalların çox az olduğu XX əsrin əvvəllərində bölgənin tarixi və maddi mədəniyyət abidələri, əldə edilmiş tapıntılar və sair haqqında qəzetdə verilən operativ məlumatlar Naxçıvan qədim və orta əsrlər dövrü tarix və mədəniyyətinin öyrənilməsi üçün həmin abidələr haqqında geniş oxucu auditoriyasına ilk məlumat verən mənbələr kimi çox dəyərlidir.*

Keçən yüzilliyin 20-ci illərində Naxçıvanın tarixi, tarix-mədəniyyət abidələri haqqında "Şərq qapısı" qəzetində bir sıra müəlliflər müxtəlifməzmunlu məqalələr dərc etdirmişlər. Həmin məqalə müəllifləri, əsasən, 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin şöbəsi kimi yaradılan Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvləri olmuşlar. Onlar cəmiyyətin üzvü kimi fəaliyyət göstərir, Naxçıvan ərazisindəki tarix-mədəniyyət abidələrini tədqiq edir, tədqiqatlarının nəticələrini qəzet və jurnallarda dərc etdirirdilər. Onlar, həmçinin elmi-tədqiqat məqsədilə Naxçıvana gələn alimlərlə birgə çalışırdılar.

Naxçıvan diyarının maddi mədəniyyət nümunələri ilə əlaqədar "Şərq qapısı" qəzetinin səhifələrində məqalələr dərc etdirən həmin ziyalılardan biri Mirbağır Mirheydərzadə olmuşdur. Ərəb və fars dillərinə dərindən bələd olan, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi yaradılarkən onun elmi katibi təyin edilən, az sonra Naxçıvan Dövlət Tarix Muzeyinin qurucularından birinə çevrilən Mirbağır Mirheydərzadə "Şərq qapısı" qəzetinin və jurnalların səhifələrində Naxçıvanın tarixi və tarix-mədəniyyət abidələri haqqında məqalələr dərc etdirmişdir. Onun bu sahə ilə əlaqədar ilk məqalələrindən biri qəzetin 8 sentyabr 1925-ci il tarixli nömrəsində işıq üzü görən "İşə başlamalıyız" adlı məqaləsidir. Naxçıvan ziyalılarına müraciət şəklində qələmə alınan məqalədə Mirbağır Mirheydərzadə Naxçıvan ziyalılarını cəmiyyətin işində fəal iştirak etməyə çağırırdı.

Mirbağır Mirheydərzadə cəmiyyətin işlək bir orqana çevrilməsi, qarşısına qoyulan vəzifəni uğurla yerinə yetirməsi üçün səylə çalışır, işə soyuq münasibət bəsləyən cəmiyyət üzvlərini "Şərq qapısı" qəzetinin 27 fevral 1927-ci il tarixli nömrəsində tənqid edirdi. Vəzifəsinə uyğun olaraq Naxçıvan ərazisindəki tarix-mədəniyyət abidələrinin tədqiqi ilə məşğul olan Mirbağır Mirheydərzadə tədqiqat üçün Naxçıvana gələn alimlərə kömək edir, bələdçi kimi muxtar respublikanın yaşayış məskənlərini onlarla birlikdə gəzirdi. Bu məqsədlə o, 1926-cı ildə Naxçıvanda tədqiqat aparan akademik İ.Meşaninovun və professor A.Millerin apardığı arxeoloji qazıntılarda çalışmışdır. Həmçinin o, 1926-1927-ci illərdə muxtar respublikanın bir sıra yaşayış məskənlərində tədqiqatlar aparan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi V.Sısoyevin ekspedisiyasında elmi işçi kimi iştirak etmişdir. Mirbağır Mirheydərzadə bu sahədə fəaliyyətini sonrakı vaxtlarda da davam etdirmiş, 1934-cü ildə rus etnoqraf-alimi K.N.Smirnova Naxçıvanda bələdçilik etmiş, ona material toplanmasında yardımçı olmuşdur. Hətta o, 1951-ci ildə 78 yaşı olmasına baxmayaraq, arxeoloq O.Həbibullayevin Kültəpədə apardığı arxeoloji qazıntılarda da iştirak etmişdir.

"Şərq qapısı" qəzetində dərc olunan məqalələrin təhlili göstərir ki, ərəb və fars dilləri sahəsində yüksək biliyə malik olması səbəbindən o, Naxçıvanın epiqrafik abidələrinin, memarlıq abidələri üzərində qalan ərəb-fars dilli kitabələrin tədqiqinə daha çox maraq göstərmişdir. Bunu onun "Şərq qapısı" qəzetinin 22 dekabr 1927-ci il tarixli nömrəsində işıq üzü görən "Asari-ətiqə" adlı məqaləsi də təsdiq edir. Müəllif bu məqaləsində Naxçıvan şəhərindəki Möminə xatın, Yusif Küseyir oğlu və Qarabağlar kəndindəki türbə kompleksinə daxil olan abidələr və onların kitabələri haqqında məlumat vermişdir.

Qarabağlar Türbə Kompleksi haqqında "Şərq qapısı" qəzetinin digər saylarında da yazılar dərc olunmuşdur. Məsələn, qəzetin 28 dekabr 1926-cı ildə buraxılmış 60-cı sayında dərc olunan "Asari-ətiqə" adlı məqalədə Qarabağlar Türbə Kompleksinin mövcud vəziyyəti haqqında məlumat verilmiş və həmin vaxt bu işə cavabdeh olan cəmiyyətə bu barədə xəbərdarlıq edilmişdir.

"Şərq qapısı" qəzetində Naxçıvanın tarixi və tarix-mədəniyyət abidələri haqqında yazılar dərc etdirən müəlliflərdən biri də Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəal üzvlərindən biri olan Seyid Səbri olmuşdur. Qəzetin ilk müxbirlərindən olan Seyid Səbrinin qəzetin müxtəlif nömrələrində dərc edilmiş məqalələrinin təhlili göstərir ki, onun qələmə aldığı mövzular maarif və mədəniyyətin təbliği, xurafat və nadanlığın, geriliyin tənqidi, tarix və mədəniyyət abidələri haqqında məlumatlar olmuş, o, həmin dövr üçün aktual məsələləri qəzet vasitəsilə təqdim edə bilmiş, bölgə tarixinin və mədəniyyətinin naməlum məsələlərini oxuculara çatdırmağı vacib saymışdır. Bunu onun "Şərq qapısı" qəzetinin 15 sentyabr 1926-cı il tarixli sayında işıq üzü görən "Ordubad qəzasında asari-ətiqə" adlı məqaləsi də təsdiq edir. Seyid Səbri bu məqaləsində qəzanın mərkəzi olan Ordubad şəhərindəki 5 abidə (Qoç qəbiristanlığı, Çardağ qəbiristanlığı, Sərşəhər məhəlləsindəki 1200 yaşlı çinar, mədrəsə və Ordubad şəhər Came məscidi) haqqında məlumat verir. Bu məlumatlar içərisində Ordubad şəhərinin Kürdətal məhəlləsindəki Qoç qəbiristanlığı, Ordubad şəhərindəki Came məscidi təmir edilərkən tapılan və üzərində hicri 111-ci il tarixi və "Harun" şəxs adı yazılmış kərpic haqqındakı fikri çox dəyərlidir. Müəllifin yazdığı kimi "indi harada olduğu bəlli olmayan" həmin kitabə Came məscidinin əsasının nə vaxt qoyulması haqqında fikir yürütməyə əsas verir. Belə ki, hicri-qəməri təqvimi ilə 111-ci il, miladi təqvimi ilə 729-cu ilə müvafiqdir. Bu məlumata əsasən Ordubad şəhərindəki Came məscidinin əsasının Harun adlı şəxs tərəfindən 729-cu ildə qoyulduğunu, XVII əsrdə indiki şəklə salındığını ehtimal etmək olar. Təəssüf ki, müəllifin məqalədə qeyd etdiyi kimi həmin yazılı kərpic itib-batmış, harada olduğu bəlli deyildir. Əgər həmin kərpic qalsaydı, Came məscidi, bütövlükdə, Ordubad şəhəri, onun tarixi haqqında çox sanballı elmi fikirlər söyləmək olardı.

Ərəb-fars dillərində yüksək savada malik olan Seyid Səbri tarix-memarlıq abidələri




üzərində qalan kitabələri oxuya bilmiş və abidələr haqqında fikir söyləyərkən bu məlumatlara əsaslanmışdır. Məsələn, haqqında bəhs olunan məqalədə müəllif Ordubad şəhərindəki Came məscidinin şərqdən giriş qapısının baş tərəfində qoyulan və məzmunu Səfəvi hökmdarı I Şah Abbasın Ordubad şəhər əhalisinin xəzinəyə veriləcək bir sıra vergilərdən azad edilməsi haqqında 1604-cü il tarixli fərmanının mətnindən ibarət olan kitabə haqqında məlumat verir və qeyd edir ki, "həmin daşın üzərində olan yazılar Ordubadda olan Xacə Nəsir Tusi (Nəsirəddin Tusi ) tayfasının vergidən azad edilməsi haqqındadır". Yaxud da Ordubad şəhər mədrəsəsinin Səfəvi hökmdarı Şah Sultan Hüseyn vaxtı inşa olunmasını təyin etməsi fikrimizi təsdiqləyir. Bu fikri Seyid Səbrinin Ordubad rayonunun Nüsnüs kəndindəki pir-məscidin qapısı üzərində həkk edilən kitabə, Ordubad rayonunun Vənənd kənd Came məscidinin kitabələri və sair haqqında söylədiyi fikirlər də təsdiq edir.

Seyid Səbrinin "Şərq qapısı" qəzetində dərc etdirdiyi bəzi məqalələr Naxçıvan bölgəsinin bir neçə tarix-mədəniyyət abidəsi haqqında ilk dəfə məlumat verən mənbə kimi böyük əhəmiyyət daşıyır. Məsələn, onun qəzetin 1926-cı il tarixli 7-ci sayında dərc etdirdiyi "Quyulu dağ" məqaləsi bu abidə haqqında məlumat verən ilk mənbə kimi çox əhəmiyyətlidir. Məqalə dərc olunarkən bu abidə haqqında yerli əhalidən başqa, heç kimin, o cümlədən tədqiqatçıların məlumatı olmamışdır. Ona görə də məqalə Quyulu dağ abidəsini elmi dövriyyəyə daxil edən ilk mənbə kimi xüsusi əhəmiyyət daşıyır.

Göründüyü kimi, Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvləri çox vətənpərvər insanlar olmuş, bölgənin tarix və mədəniyyətinin öyrənilməsi ilə əlaqədar cəmiyyətin işini canlandırmaq, inkişaf etdirmək və bu sahədə uğurlar qazanmaq üçün səy göstərmiş, çalışmış, məqsədlərinə nail olmaq üçün bütün vasitələrdən istifadə etmişlər.

Məlum olduğu kimi, bütün dövrlərdə, o cümlədən XX yüzilliyin əvvəllərində bəzi məsuliyyətsiz adamlar, xüsusilə dəfinə hərisləri arxeoloji və memarlıq abidələrində icazəsiz qazıntılar aparır, bununla da abidələrin dağılmasına səbəb olurdular. Ona görə də Naxçıvanda yeganə mətbu orqan olan "Şərq qapısı" qəzeti bu cür halların qarşısını almaq üçün tədbirlər görür, səhifələrində aid təşkilatların bununla əlaqədar elanlarına və xəbərdarlıqlarına yer ayırırdılar. Bu baxımdan Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin sədri V.Həsənzadənin və cəmiyyətin elmi katibi M.Mirheydərzadənin adından "Şərq qapısı" qəzetinin 1 oktyabr 1925-ci il tarixli 49-cu sayında əhaliyə xəbərdarlıq şəklində verilən elan diqqəti cəlb edir. Göründüyü kimi, tarix-mədəniyyət abidələri ilə əlaqədar özbaşına tədqiqatların həyata keçirilməsi, xüsusilə arxeoloji qazıntılar aparılması məsələsi ilə əlaqədar əhaliyə edilən xəbərdarlıqlar "Şərq qapısı" qəzetinin səhifələrində də özünə yer almışdır. Bu qəbildən olan xəbərdarlıqlara qəzetin sonrakı vaxtlarda dərc olunan saylarında da rast gəlmək olur. Məsələn, qəzetin 8 iyul 1926-cı il tarixli 18-ci sayında işıq üzü görən yazıda bununla əlaqədar oxuyuruq: "... Bütün vətəndaşlara qadağan olunur ki, heç kəs Cümhuriyyət daxilində həfriyyat (qazıntı) işlərinə əl vurmayıb, asari-ətiqələri özlərində saxlamasınlar. Əks surətdə kim olursa-olsun, hökumət tərəfindən yaxalandıqda cərəyan edən qanunlar ilə onlar məsuliyyətə cəlb olunacaqlar". Qəzetin səhifələrində əhaliyə çatdırılan bu kimi xəbərdarlıqlar öz müsbət nəticəsini vermiş, abidələrin dağıdılmasının qarşısı müəyyən qədər alınmışdır.

"Şərq qapısı" qəzetinin fəaliyyətə başladığı ilk illərdə ərəb qrafikası əsasında yaradılmış Azərbaycan əlifbası ilə nəşr olunan saylarında Naxçıvanın tarixi və tarix-mədəniyyət abidələri, onların qorunması, tədqiqi və təbliği ilə əlaqədar işıq üzü görən məqalələr bu gün də öz aktuallığını itirməmişdir. Onlar Azərbaycanın tərkib hissəsi olaraq Naxçıvan tarixinin mənbəyi kimi mühüm əhəmiyyət kəsb edirlər. Bu baxımdan xüsusilə dövrün qabaqcıl, savadlı insanları tərəfindən qələmə alınan həmin məqalələrdə haqqında bəhs olunan (məsələn, Ordubad şəhərindəki Came məscidində 1902-ci ildə tapılan hicri 111-ci il, miladi 729-cu il tarixli kitabə kimi), ancaq bu günə qədər gəlib çatmayan mənbələr barədə verilən məlumatlar tarixi baxımdan çox böyük əhəmiyyətə malikdirlər.

*Nəzərdən keçirdiyimiz məqalələr əsasında deyə bilərik ki, keçən yüzilliyin 20-ci illərinin ortalarında "Şərq qapısı" qəzetinin səhifələrində tarix-mədəniyyət abidələrimizlə əlaqədar dərc etdirilən məqalələr artıq tarix və mədəniyyətimiz üçün sanballı qaynaqlara çevrilmişlər. Heç təsadüfi deyildir ki, Ali Məclis Sədrinin imzaladığı "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncamın preambula hissəsində "Şərq qapısı" qəzeti "Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamə" kimi xarakterizə olunmuşdur.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü***

## İtmişdir

Şərur rayonunun Çərçiboğan kəndində yaşamış Seyidov Mirqasım Yasin oğlunun adına verilmiş JN-91A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Əbulov Faiq Alik oğlunun adına olan zabitin MN-0055988 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

İbrahimov Toğrul Əli oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Quliyeva Yeganə Səttar qızının adına olan 0201133562 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Aşağı Yaycı kənd sakini Əliyev Həmid Mahmud oğlunun adına olan JN-118B inventar nömrəli, 10215018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində Babayeva Elmira Məmmədcəfər qızının adına verilən MH-160A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 710